TuranBank
...Bizimlə etibarlıdır

# QARABAĞ AZƏRBAYCANDIR!



İLLİK HESABAT
2020



Azərbaycanın hərtərəfli inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülür və ordu quruculuğu prosesi bu işlərdə başlıca rol oynayır. Yenə də deyirəm, biz müharibə şəraitində yaşayırıq, buna görə də biz ilk növbədə, ordu quruculuğu ilə məşğul olmalıyıq və məşğul oluruq. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır və hər an hazır olmalıyıq ki, öz doğma torpağımızı düşməndən silahlı yolla azad edək.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**
**Bakı, 24.06.2009**
**Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının**
**91-ci ildönümü zamanı səsləndirilən fikirdən bir parça**

TuranBank
...Bizimlə etibarlıdır

# MÜNDƏRİCAT


STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR ........ 03

BANK HAQQINDA ÜMUMİ MƏLUMAT ........ 06

2020-Cİ İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR ........ 11

ÖN SÖZ ........ 15

MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU ........ 18

KREDİTLƏŞMƏ ........ 19

KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT ........ 21

RİSKLƏRİN İDARƏ EDİLMƏSİ ........ 23

ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR ........ 24

İNFORMASİYA TEXNOLOGİYALARI VƏ RƏQƏMSALLAŞMA ........ 26

İNSAN RESURSLARI ........ 28

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ ........ 30

XƏZİNƏDARLIQ FƏALİYYƏTİ ........ 32

AUDİTOR RƏYİ ........ 35

**"Qarabağ"** xalq mahnısı.
İfa edir: Təyyar Bayramov



## PƏNAHƏLİ XAN – QARABAĞ XANLIĞININ QURUCUSU

Qarabağ xanlığının yaradıcısı Pənahəli xan Cavanşirin Qarabağda bir çox tarixi əhəmiyyətli tikililərin qurulmasında, şəhərlərin salınmasında, incəsənət ocaqlarının yaradılmasında, ticarət əlaqələrinin genişləndirilməsində və Qarabağ regionunun tanınmasında böyük rolu olmuşdur. Qarabağ xanlığının möhkəmlənməsi və yüksəlişi Azərbaycanın tarixində mühüm rol oynayan Pənahabad şəhəri ilə bağlıdır.

# STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR

**Strateji baxışımız**
TuranBankı Respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi vasitəsi ilə ölkə üzrə əhali, mikro, kiçik və orta sahibkarlığa xidmət göstərən, xarici investisiyalı pərakəndəyönümlü universal bank etmək.

**Missiyamız**
TuranBank inkişaf edən peşəkar komandası ilə müştərilərinə beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli xidmət göstərən, cəmiyyətin sosial həyatında aktiv iştirak edən, investorlarının investisiyalarının dəyərinin artımını təmin edərək dinamik inkişaf edən etibarlı və şəffaf bankdır.

**1. İnvestorlara münasibətdə**
Bank əldə edilən mənfəətin bir hissəsini reinvestisiya etməyi hədəfləyir. Bundan əlavə, Bank həm bazar payının, həm aktivlərinin keyfiyyətinin, həm də korporativ dəyərlərinin reallaşması nəticəsində imicinin yüksəlməsi hesabına səhmlərinin real dəyərinin davamlı artmasına nail olacaqdır. Bu, mövcud səhmdarların Banka investisiyalarının artırılmasını stimullaşdırmaqla yanaşı, Bankı digər investorlar üçün cəlbedici edəcək və xarici investisiyanın kapitalda xüsusi çəkisinin artımına səbəb olacaqdır.

**2. İşçiyə münasibətdə**
Bank işçi heyətini daima diqqətdə saxlayacaq, əməkdaşlarına daimi və məqsədli investisiyalar qoyacaq, karyera inkişafını təmin edəcək, öz potensiallarının reallaşması üçün yuxarıdan aşağı səlahiyyət bölgüsünü təkmilləşdirəcək və nəticəyə əsaslanan motivasiya sistemlərinin tətbiq dairəsini genişləndirəcəkdir.

**3. Müştəriyə münasibətdə**
Bank işçi heyətinə və informasiya texnologiyalarına qoyulan investisiyaların nəticəsi olaraq, müştərilərinə daha peşəkar, keyfiyyətli və operativ xidmət göstərəcək, hər bir müştəri qrupuna xüsusi xidmətlər paketi hazırlayacaqdır.

**Dəyərlərimiz**
- Bütövlük (maraqların qorunması, səmimiyyət, dürüstlük, dəqiqlik, məsuliyyətlilik, obyektivlik, ardıcıllıq)
- Şəffaflıq
- Daimi inkişaf
- Müştəriyə yönlənmə
- Etibarlılıq
- Nəticəyə yönlənmə
- İşçiyə ən qiymətli kapital kimi dəyər vermək
- Cəmiyyət qarşısında korporativ sosial məsuliyyət

# EVİMİZƏ



# QAYIDIRIQ!



TuranBank
...Bizimlə etibarlıdır

## BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

| | |
|---|---|
| **Bankın tam adı:** | TuranBank Açıq Səhmdar Cəmiyyəti |
| **Bankın qısa adı:** | TuranBank ASC |
| **Yaranma tarixi:** | 12 iyun 1992 |
| **Hüquqi ünvanı:** | AZ1073, İsmayıl bəy Qutqaşınlı küç.,85, Bakı şəh.,Azərbaycan Respublikası |
| **Kod:** | 507462 |
| **VÖEN:** | 1300016391 |
| **Azərbaycan Mərkəzi Bankında Müxbir Hesab:** | AZ26NABZ01350100000000027944 |
| **SWIFT:** | TURAAZ22 |

+994 (12) 935
+994 (12) 510 79 11, 510 79 22
+994 (12) 497 25 77
office@turanbank.az
www.turanbank.az
www.facebook.com/turanbankasc
turanbank

## LİSENZİYA

TuranBank Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş (hazırkı Mərkəzi Bank) 30.12.1992-ci tarixli 115 №-li lisenziya əsasında fəaliyyət göstərir.

## PEŞƏKAR ASSOSİASİYALARDA, BİRLİKLƏRDƏ, BİRJALARDA VƏ ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ ÜZVLÜK

- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK)
- Azərbaycan Banklar Assosiasiyası (ABA)
- Azərbaycan Mikro-Maliyyə Assosiasiyası (AMFA)
- Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)
- Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA)
- Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM)
- Beynəlxalq Banklararası Maliyyə Telekommunikasiya Birliyi (SWIFT)
- Mastercard beynəlxalq ödəniş sistemi
- Western Union beynəlxalq ödəniş sistemi
- Zolotaya Korona MDB ölkələri üzrə ödəniş sistemi
- Monex respublikadaxili pul köçürmə sistemi
- Contact pul köçürmə sistemi

## 2020-ci ilin sonuna əsas göstəricilər (mln. AZN)

| Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Aktivlər | 244,3 | 316,9 | 517,7 | 508,3 | 456,4 | 457,7 | 455,4 | **518,2** |
| Kredit portfeli | 177,6 | 218,2 | 280,8 | 272,8 | 258,3 | 290,7 | 315,3 | **326,7** |
| Əmanət portfeli | 108,2 | 143,8 | 246,9 | 274,6 | 224 | 249,2 | 241,6 | **280,7** |
| Müddətli əmanətlər | 76 | 89,1 | 149,2 | 142,0 | 132,9 | 175,4 | 164,9 | **182,1** |
| Məcmu kapital | 50,5 | 55,4 | 53,3 | 54,9 | 53,8 | 34,1 | 48,7 | **55,8** |
| Səhmdar kapitalı | 44 | 47 | 50 | 55 | 55 | 55 | 70 | **75** |
| Gəlir | 27,9 | 33,2 | 39,5 | 37,1 | 34,2 | 33,9 | 38,6 | **42,2** |
| Xərc | 23,1 | 26,2 | 40,8 | 50,4 | 35,4 | 36,9 | 38,2 | **39,8** |
| Mənfəət | 4,8 | 7 | -1,13 | -13,3 | -1,2 | -2,97 | 0.38 | **2,4** |

## Səhmdarlarımız

| Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Səhmdarların ümumi sayı, o cümlədən: | 28 | 27 | 27 | 27 | 27 | 27 | 28 | **28** |
| Hüquqi şəxslər | 6 | 6 | 6 | 6 | 6 | 8 | 8 | **8** |
| Fiziki şəxslər, | 22 | 21 | 21 | 21 | 21 | 19 | 20 | **20** |
| o cümlədən: bankın işçiləri | 4 | 4 | 4 | 5 | 5 | 3 | 3 | **3** |
| Səhmdarların nizamnamə kapitalında payı (%), o cümlədən: hüquqi şəxslər, | 29,11 | 22,2 | 29,2 | 28,4 | 28,4 | 37,7 | 42,2 | **44,7** |
| o cümlədən: qeyri-rezident hüquqi şəxslər | 7,4 | 7 | 7 | 6,34 | 6,34 | 6,34 | - | **-** |
| fiziki şəxslər, | 70,89 | 77,8 | 70,8 | 71,6 | 71,6 | 62,3 | 57,8 | **55,3** |
| o cümlədən: bankın işçiləri | 17,98 | 18,2 | 18,2 | 18,7 | 18,7 | 8.1 | 6,4 | **5,97** |
| Səhmdarlarımıza ödədiyimiz dividend | 11% | 12,3% | - | - | - | - | - | **-** |

## İşçilərimiz

| Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | **2020** |
|---|---|---|---|---|---|---|---|---|
| İşçilərimizin ümumi sayı, | 372 | 464 | 476 | 403 | 384 | 436 | 527 | **517** |
| o cümlədən: | | | | | | | | |
| Baş ofis | 129 | 157 | 177 | 183 | 184 | 183 | 200 | **201** |
| Filiallar | 211 | 277 | 272 | 220 | 200 | 253 | 327 | **316** |
| Mübadilə şöbələri | 32 | 30 | 27 | 0 | 0 | 0 | 0 | **0** |

## Xidmət şəbəkəmiz

| Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | **2020** |
|---|---|---|---|---|---|---|---|---|
| Filialların sayı, | 12 | 13 | 14 | 14 | 14 | 14 | 14 | **14** |
| o cümlədən: | | | | | | | | |
| Bakı şəhərində | 6 | 6 | 6 | 6 | 6 | 6 | 6 | **6** |
| Regionlarda | 6 | 7 | 8 | 8 | 8 | 8 | 8 | **8** |
| Şöbələrin sayı, | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | **2** |
| o cümlədən: | | | | | | | | |
| Bakı şəhərində | | | | | | | | **1** |
| Regionlarda | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | **1** |
| Bankomatların sayı, | 21 | 22 | 26 | 28 | 29 | 28 | 30 | **31** |
| o cümlədən: | | | | | | | | |
| Bakı şəhərində | 13 | 13 | 16 | 18 | 19 | 17 | 19 | **17** |
| Regionlarda | 8 | 9 | 10 | 10 | 10 | 11 | 11 | **14** |
| POS-terminalların sayı, | 210 | 162 | 159 | 158 | 169 | 179 | 213 | **223** |
| o cümlədən: | | | | | | | | |
| Bakı şəhərində | 186 | 135 | 132 | 131 | 142 | 132 | 154 | **156** |
| Regionlarda | 24 | 27 | 27 | 27 | 27 | 47 | 59 | **67** |
| Törəmə qurumlarımız | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | **1** |

## Kapital investisiyalarımız

| | Qurumun adı | Səhmdar payı | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | **2020** |
| 1 | Azər-Türk Bank ASC | 4% | - | - | - | - | - | - | **-** |
| 2 | Başak İnam Sığorta Şirkəti | 8,33% | 8,33% | 8,33% | 8,33% | 8,33% | 7.14% | 7.14% | **7.14%** |
| 3 | Milli Kart MMC Prossesinq Mərkəzi | 2,4% | 2,4% | 2,4% | 2,4% | 2,4% | 2.4% | 2.4% | **2.4%** |
| 4 | TuranLizinq MMC | 100% | 100% | 100% | 100% | 100% | 100% | 100% | **100%** |

## Beynəlxalq auditorlarımız:

Baker Tilly Azerbaijan

KPMG

Deloitte & Touche

PriceWaterHouseCoopers

# CƏBRAYIL RAYONU

Rəvayətlərə görə VIII əsrdə yaşamış Sultan Əhməd adlı hökmdarın yaxın adamlarından biri olmuş Cəbrayıl atanın şərəfinə adlandırılan Cəbrayıl rayonu çoxlu sayda türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri ilə zəngindir.

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən, Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən karvan yolunun üstündə tikilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir.

1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunan Cəbrayıl rayonu 4 oktyabr 2020-ci ildə Müzəffər Ordumuz tərəfindən yenidən Azərbaycan torpaqlarına birləşdirildi.

**XUDAFƏRİN KÖRPÜSÜ**



TuranBank
...Bizimlə etibarlıdır

# 2020-Cİ İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR

- Bank özünün yeni rəqəmsal məhsulu olan mobil tətbiqini müştərilərə təqdim etmişdir;
- Bank tamamilə yenilənmiş internet bankçılıq sistemini istifadəyə vermişdir;
- Bank özünün xidmət şəbəkəsinin inkişafı strategiyasına uyğun olaraq yeni Xırdalan şöbəsini açmışdır;
- Bank nağd kredit faizləri üzrə faiz dərəcəsini daha sərfəli edən yeni "PAYIZ" kampaniyası ilə müştərilərini sevindirmişdir;
- Bank ECO Ticarət və İnkişaf Bankı ilə ticarətin maliyyələşməsi istiqamətində 2 milyon ABŞ dolları həcmində kredit sazişi imzalamışdır;
- Bank AlfaBankda müxbir hesabı açmaqla özünün müxbir əlaqələr şəbəkəsini genişləndirmişdir;
- Bank Beynəlxalq Maliyyə Korporasiyası ilə imzaladığı "Project Services Agreement" adlı müqavilə çərçivəsində "CLARA" layihəsinin icrasını uğurla başa çatdırmışdır;
- Bank Avropa Yenidənqurma və İnkişaf Bankı ilə "Maliyyə vasitəçilərinin potensialının gücləndirilməsi üzrə Tetxniki Əməkdaşlıq proqramı" çərçivəsində, MKOS subyektlərinin maliyyələşdirilməsi potensialının artırılması istiqamətində fəaliyyətini davam etdirmişdir;
- Bank Avropa Yenidənqurma və İnkişaf Bankı ilə "Risklərin idarə edilməsi və Komplayens" üzrə yeni Texniki Əməkdaşlıq sazişi imzalamışdır.

## Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Novruz bayramı, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü, eləcə də Ramazan və Qurban bayramları münasibəti ilə ərzaq yardımının edilməsi;
- 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Ümid Yeri" uşaq sığınacağının balaca sakinləri arasında "Uşaqları qoruyaq" adlı rəsm müsabiqəsinin keçirilməsi;
- Əlilliyi olan şəxslər üçün özünüməşğulluq proqramına dəstək olması;
- Koronavirusla Mübarizəyə Dəstək Fonduna, Silahlı Qüvvələrə Yardım Fonduna, "YAŞAT" Fonduna və Qarabağ Dirçəliş Fonduna vəsait ayrılması;
- Azərbaycan Talassemiya Federasiyasının təşkilatçılığı ilə Bank əməkdaşlarının ənənəvi qanvermə aksiyasının təşkili.

# MÜŞAHİDƏ ŞURASI



**Rauf Kazımov**

Müşahidə Şurasının sədri



**Nazim Sadıqov**

Müşahidə Şurasının üzvü



**Akif Kərimov**

Müşahidə Şurasının üzvü



**Ramiz Qasımov**

Müşahidə Şurasının üzvü



**Abid Məmmədov**

Müşahidə Şurasının üzvü

# AUDİT KOMİTƏSİ



**Məhəmməd Kələşov**

Audit Komitəsinin sədri



**Davud Quliyev**

Audit Komitəsinin üzvü



**Famil Nəbiyev**

Audit Komitəsinin üzvü

# İDARƏ HEYƏTİ



**Fəzail Musayev**

İdarə Heyətinin sədri



**Orxan Qarayev**

İdarə Heyətinin sədr müavini



**Çingiz Ağayev**

İdarə Heyətinin sədr müavini



**Kəmalə Mustafayeva**

İdarə Heyətinin üzvü



**Bəxtiyar Məmmədov**

İdarə Heyətinin üzvü

# BAŞ DİREKTOR



**Emil Mürsəlov**

Satış üzrə baş direktor



*Hörmətli, Xanımlar və Cənablar!*

*Böyük məmnunluq hissi ilə TuranBankın 2020-ci il üzrə fəaliyyətinin yekunlarını əks etdirən illik hesabatı Sizə təqdim edirəm. Hesabatın Bankımızın 2020-ci ildəki fəaliyyəti, əldə edilən uğurlar, xidmətlər və dəyərlər haqqında tərəfdaş və müştərilərimiz tərəfindən ətraflı məlumat əldə etmək imkanı yaradacağına əminəm.*

**Rauf Kazımov**

TuranBank ASC-nin Müşahidə Şurasının sədri

Yola saldığımız 2020-ci il Azərbaycan dövləti və xalqı üçün ən yaddaqalan və şanlı dövr kimi tarixə yazılmışdır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident Ilham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası əsasında ölkədə həyata keçirilmiş iqtisadi və hərbi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət, dövlət və ordu quruculuğu 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə qazanılmasını, işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmişdir.

Digər tərəfdən, 2020-ci il ölkə iqtisadiyyatı üçün sosial-iqtisadi cəhətdən kifayət qədər mürəkkəb bir il olmuşdur. COVID-19 pandemiyası, əlbəttə ki, bütün dünya üçün çox böyük sınaq idi ki, Azərbaycan da bu sınaqdan şərəflə çıxır. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı 2020-ci ildə qarşılaşdığı çətinliklərə– COVID-19 pandemiyası, aşağı neft qiymətləri, Ermənistanın hərbi təxribatlarından doğan nəticələrə adekvat cavab verə bilmişdir. Baxmayaraq ki, 2020-ci il bütün ölkələr üçün iqtisadi sahədə ağır il olub, amma Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxmışdır. Dövlət tərəfindən atılan addımlar sayəsində iqtisadi geriləmə yumşaldılmış, makroiqtisadi sabitlik qorunmuş, məşğulluğa dəstək verilmiş, sahibkarlığın dəstəklənməsi üçün maliyyə yardımı və güzəşt paketləri təqdim olunmuş, sosial layihələr genişləndirilmişdir.

2020-ci ildə Azərbaycan Dünya Bankının "Doing Business 2020" hesabatında 10 ən islahatçı ölkə sırasında yer almışdır. Bununla da Azərbaycan cənab Prezidentin rəhbərliyi ilə Dünya Bankı tərəfindən ardıcıl iki dəfə dünyanın ən islahatçı 10 ölkəsindən biri kimi qiymətləndirilən nadir ölkələrdən biri olaraq tarix yazmışdır.

2020-ci il ölkənin maliyyə və bank sektoru üçün qlobal şoklardan yayınma, makroiqtisadi stabillik, yenidənqurma və iqtisadi yüksəlişə dəstək siyasəti ili kimi yadda qalmışdır. Pandemiyanın təsiri ilə cari ilin birinci yarısında bank sektorunda müşahidə olunan dalğalanmalar cari ilin ikinci yarımilindən etibarən stabilləşmiş, kredit portfeli, bank sisteminin cəmi aktivləri, xalis mənfəəti və kapitalı yaxşılaşmağa başlamışdır. Ölkənin bank sistemi stabilliyini qorumaqla yanaşı, həm də müsbət irəlləyiş göstərmişdir. Belə ki, iyun-dekabr ayları ərzində bankların aktivlərinin həcmi 2,5 %, depozitlərin həcmi 4 %, fiziki şəxslərin əmanətləri isə 6,5 % artımışdır. Kreditləşmə isə il ərzində aktiv davam etdirilmiş, həmçinin kreditlərin keyfiyyəti də yaxşılaşmış, qeyri-işlək kreditlərin portfeldəki payı 6,1 % təşkil etmişdir. Hesabat dövründə bank sektorunun öhdəlikləri 2,8 % azalaraq 27 356,1 milyon manat, balans kapitalı 2,5 % artaraq 4 699,2 milyon manat olmuşdur. Hesabat ilində Azərbaycanın bank sektoru 567,8 milyon manat xalis mənfəət əldə etmişdir ki, bu da əvvəlki il ilə müqayisədə 5,8 % çoxdur.

Geridə qoyduğumuz 2020-ci ildə 28 yaşını qeyd edən TuranBank da maliyyə bazarının bir iştirakçısı kimi müvəffəqiyyətlər əldə etmişdir. Hesabat ilində TuranBankın cəmi aktivləri 518,2 milyon manat, depozit portfeli 280,7 milyon manat təşkil etmişdir. Bankımızın nizamnamə kapitalı 75 milyon, məcmu kapitalı isə 55,8 milyon manata bərabər olmuşdur.

2020-ci ildə maliyyə sabitliyi siyasəti başlıca olaraq maliyyə bazarlarının və sisteminin stabilliyinin təmin olunmasına, pandemiyanın neqativ təsirlərinin minimallaşdırılmasına, əhalinin və biznesin dəstəklənməsinə yönəldilmişdir. Yaranmış vəziyyətə baxmayaraq maliyyə vasitəçiliyinin genişləndirilməsi və maliyyə bazarlarının dərinləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Prezident İlham Əliyevin real sektorun maliyyə vəsaitləri hesabına dəstəklənməsi tövsiyəsini rəhbər tutan Bankımız hesabat ilində bu istiqamətdə layihələrin icrasına xüsusi önəm vermiş və sahibkarların kreditləşməsi həcmlərini artırmışdır. Belə ki, kiçik və orta sahibkarlıq subyektlərini lazımi maliyyə resursları ilə təmin etmək üçün Bank yerli qurumlardan Sahibkarlığın İnkişafı Fondu (SİF), Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) ilə müxtəlif uğurlu layihələr həyata keçirmiş və qeyri-neft sektorunun inkişafı istiqamətində öz töhfəsini layiqincə vermişdir. Təsadüfi deyil ki, hesabat ilinin sonuna Bankın kredit portfelinin 257 milyon manatını biznesin maliyyələşməsinə yönəlmiş kreditlər təşkil etmişdir ki, bu da ümumi kredit portfelinin təxminən 78,6 faizinə bərabər olmuşdur. Verilmiş kreditlərin 174 milyon manatı (53,2%) korporativ kreditlərin, 45 milyon manatı (13,8%) kiçik və orta biznes kreditlərinin, 38 milyon manatı isə (11,6%) mikrokreditlərin payına düşmüşdür.

Real sektorun inkişafına daim dəstək verən TuranBank kiçik və orta sahibkarların (KOS) maliyyə vəsaitlərinə çıxış imkanlarını genişləndirmək üçün hesabat ili ərzində xarici maliyyə qurumları ilə yeni əməkdaşlıqların qurulmasına, beynəlxalq kredit xətlərinin cəlb edilməsinə nail olmuş, mövcud əlaqələri inkişaf etdirmişdir. Fəaliyyəti ərzində Bankımız Beynəlxalq Maliyyə Korporasiyası (İFC), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB), ECO Ticarət və İnkişaf Bankı (ECO TDB) və s. kimi nüfuzlu maliyyə təşkilatları ilə kiçik və orta sahibkarlıq layihələri üzrə birgə əməkdaşlıq edərək qeyri-neft sektorunun inkişafına ciddi dəstək olmuşdur. Hesabat ili ərzində Bankımız ECO Ticarət və İnkişaf Bankı ilə ticarətin maliyyələşməsi istiqamətində 2 milyon ABŞ dolları həcmində kredit sazişi imzalamışdır.

İnstitusional inkişafı özünün əsas prioriteti hesab edən Bankımız beynəlxalq təcrübələrin tətbiqi ilə bağlı önəmli addımlar atmaqda davam edir. Bu məqsədlə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə "Maliyyə vasitəçilərinin potensialının gücləndirilməsi" və "Komplayens siyasətinin təkmilləşdirilməsi" üzrə Texniki Əməkdaşlıq proqramı çərçivəsində MKOS subyektlərinin maliyyələşdirilməsi potensialının artırılması istiqamətində fəaliyyətini davam etdirmişdir. Bundan başqa, Bankımız  Beynəlxalq Maliyyə Korporasiyası ilə imzaladığı "Project Services Agreement" adlı müqavilə çərçivəsində Nağd Vəsait Axınları ilə Əlaqələndirilmiş Kənd Təsərrüfatı Risklərinin Qiymətləndirilməsi (CLARA) layihəsinin icrasını uğurla başa çatdırmışdır.

Fəaliyyətinin əsas hədəfi müştəri məmnunluğu olan Bank müştərilərin məhsul və xidmətlərdən istifadə edərkən vaxtlarına maksimum dərəcədə qənaət etmələrinə, onların istək və tələblərini vaxtı-vaxtında öyrənməyə imkan verən layihələr həyata keçirmişdir. Bank özünün yeni rəqəmsal xidməti olan mobil əlavəsini, tamamilə yenilənmiş internet bankçılıq sistemini müştərilərin istifadəsinə vermişdir. Bundan başqa, Bankın xidmət şəbəkəsinin inkişaf strategiyasına uyğun olaraq yeni Xırdalan şöbəsi fəaliyyətə başlamışdır.

Hesabat ili ərzində TuranBank cəmiyyət qarşısında sosial məsuliyyətlilik dəyərlərinə necə ciddi önəm verdiyini həyata keçirdiyi müxtəlif sosial tədbirləri ilə bir daha sübut etmişdir. Korporativ Sosial Məsuliyyət Proqramı çərçivəsində həyata keçirdiyi layihələri ilə cəmiyyət qarşısında sosial məsuliyyətini şərəflə daşıyan Bankımız sosial baxımdan həssas əhali qrupuna daxil olan ailələrə dəstəyini genişləndirmiş, ölkə Prezidentinin həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə banklar tərəfindən köməklik göstərilməsi təşəbbüsünə ilk qoşulan 8 bankın sırasında yer almışdır. Belə ki, hesabat ilində Bankımız tərəfindən özünüməşğulluq proqramına müraciət əsasında 56 nəfər əlilliyi olan şəxsə dəstək olunmuş, o cümlədən Tərtər və Bərdə rayonlarında əlillik dərəcəsi olan 40 nəfər şəxs fəaliyyəti üçün iri buynuzlu mal-qara ilə, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Qazax, Goranboy, Sabirabad, Xaçmaz, Ağcabədi rayonlarında əlillik dərəcəsi olan 16 nəfər şəxs fəaliyyət göstərdikləri sahə üzrə  ehtiyac duyduqları iş alətləri ilə təmin edilmişdir.  Bundan başqa, Bankımız tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat, YAŞAT Fonduna 100 min manat ianə köçürülmüş və Koronavirusla Mübarizəyə Dəstək Fonduna 100 min manat yardım edilmişdir. Bank həm də uşaq evlərinin balaca sakinlərini daim diqqət və qayğı ilə əhatə etmiş, müxtəlif əyləncəli yarışlar təşkil edərək və yaxud da bayramlarda hədiyyə və sovqatlar təqdim etməklə onların sevincinə səbəb olmuşdur.

Bu gün TuranBank ölkənin paytaxtı və əsas regional mərkəzlərində yerləşən 17 satış nöqtəsində çalışan peşəkar kadrları ilə əhali və təsərrüfat subyektlərini yüksək keyfiyyətli bank xidmətləri ilə təmin edir. Əsas hədəfimiz qarşıdan gələn illərdə daha yüksək nailiyyətlərə imza ataraq keyfiyyətli xidmətlər təklif etməklə etibarlı bank fəaliyyətini davam etdirmək, müştərilərin etibarlı tərəfdaşı imicini qoruyub saxlamaqdır.

Sonda fürsətdən istifadə edərək bizə inam göstərən hər kəsə - səhmdarlarımıza, müştərilərimizə və tərəfdaşlarımıza təşəkkürümü bildirirəm. Ötən illərdə Bankımızın əldə etdiyi nailiyyətlərdən ilhamlanaraq qarşıdan gələn dövrdə də uğurlarımızı davam etdirəcəyimizə və həyata keçirdiyimiz hər bir layihədə müştəri və tərəfdaşlarımızın keyfiyyət gözləntilərini aşacağımıza əminliyimi bir daha diqqətinizə çatdırıram.

**Rauf Kazımov**
TuranBank ASC-nin Müşahidə Şurasının sədri

# FÜZULİ RAYONU

Füzuli rayonu öz adını 1959-cu ilin aprel ayında böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə qazanmışdır. Bu rayon dünyanın ən qədim yaşayış məskənlərindən biri sayılır. Bunun sübutlarından biri də məhz Azıx mağarasıdır. Belə ki, Azərbaycanın qədim kökə sahib olduğunu sübut edən arxeoloji qazıntılar nəticəsində Azıx mağarasında tapılan Azıxantrop adamının alt çənəsinin sümükləri Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu təsdiq edir. XIV əsrə aid edilən, Füzuli rayonunun Aşağı Veysəlli kəndində təpə üzərində ucalan Mirəli türbəsi Elxanilər dövrünə aid edilir.

1993-cü ildən ərazisinin bir hissəsi Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunan Füzuli rayonu 2020-ci il 17 oktyabr tarixində Rəşadətli Ordumuz tərəfindən işğaldan tam azad olunmuşdur.

**AZIX MAĞARASI**



# MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU

2020-ci il əsasən qlobal pandemiya elan edilən COVID-19 virusu ilə mübarizə şəraitində keçmiş, ölkə iqtisadiyyatı şoklar kombinasiyasına məruz qalmışdır. Həyata keçirilən antiböhran tədbirləri pandemiyanın neqativ təsirlərini minimallaşdırmağa imkan vermiş, ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuşdur.

Əhalinin və biznesin dəstəklənməsi istiqamətində həyata keçirilən antiböhran tədbirləri, monetar şəraitin yumşaldılması və makroprudensial güzəştlər iqtisadi aktivliyin daha çox azalmasının qarşısını almış, iqtisadi subyektlərin gəlirlərindəki itkiləri qismən kompensasiya etməyə imkan vermişdir.

2020-ci il ərzində pandemiya iqtisadiyyatın ayrı-ayrı sahələrinə sektorun xarakterindən asılı olaraq fərqli təsir göstərmişdir. 2020-ci ildə ölkədə 72 432,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz, neft-qaz sektorunda isə 7,0 faiz azalmışdır. ÜDM istehsalının 33,7 faizi sənaye, 11,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,7 faizi tikinti, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,0 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7 262,8 manata bərabər olmuşdur.

Pandemiyanın təsirləri özünü qlobal ticarət və investisiyalarda da göstərmişdir. 2020-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 028,1 milyon manat və ya əvvəlki illə müqayisədə 8,3 faiz az vesait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 0,3 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 12,3 faiz azalmışdır. Ümumi sərmayənin 41,6 faizi dövlət, 58,4 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur.

Əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsi istiqamətində aparılan uğurlu fəaliyyətin nəticəsi olaraq, 2020-ci il ərzində ölkədə 129,0 min yeni iş yerləri açılmışdır.

2020-ci ildə Azərbaycanın xarici iqtisadi mövqeyi Covid-19 pandemiyasının təsirləri və əsas ixrac məhsullarının qiymətlərinin dəyişimi şəraitində formalaşmışdır. 2020-ci ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 183 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 2020-ci ildə xarici ticarət dövriyyəsi 24 201,1 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 13 470,4 milyon dollar, idxalın dəyəri 10 730,7 milyon dollar təşkil etmiş, nəticədə 2 739,7 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

2021-ci il yanvar ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 14 530,5 milyon manat təşkil etmiş, onun 12 055,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Digər tərəfdən 2020-ci ilin sonuna bank sektorunun vaxtı keçmiş kreditlərinin həcmi 893,1 milyon manat və ya ümumi kredit portfelinin 6,1% faizinə bərabər olmuşdur. Hesabat dövründə kredit portfelinin 70% və 10 204 milyon manatı milli valyutada verilmiş kreditlərin payına düşmüşdür.

Hesabatlılıq müddətinin sonuna Bank sektorunun depozitləri 23 666,9 milyon manata bərabər olmuş və 2019-cu il ilə müqayisədə 4,4% azalmışdır. Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 8 177,9 milyon manat təşkil etmişdir. Əmanətlərin 50,8 faizi xarici valyutada yerləşdirilmişdir.

# KREDİTLƏŞMƏ

Hesabat ili ərzində ölkənin digər bankları ilə yanaşı TuranBankın da fəaliyyəti ölkədə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı və dəstəklənməsi istiqamətində görülmüş davamlı tədbirlər nəticəsində müsbət göstəricilərlə yadda qaldı. Maliyyə sektorundakı islahatlar sahənin institusional inkişafı, bank sektorunun canlandırılması, rəqəmsal ödənişlərin stimullaşdırılması və s. istiqamətlərə yönəldiyindən bankların fəaliyyətinə birbaşa müsbət təsir etmişdir. Bank hesabat ili ərzində əvvəlki illərdə olduğu kimi fəaliyyəti ilə dövlətin sosial-iqtisadi islahatlarını dəstəkləyərək xüsusilə mikro və biznes istiqamətində kreditləşməni aktiv şəkildə davam etdirmişdir. Eyni zamanda, ötən il ərzində bankın kredit məhsullarının müştərilər üçün daha əlçatan olması üçün bir sıra kredit məhsullarının şərtləri yumşaldılmış, onlara müxtəlif kampaniyalarla daha sərfəli imkanlar təqdim edilmişdir.

Hesabat ili ərzində Bankın kredit portfelinin həcmi 327 milyon manat təşkil etmişdir. Kredit portfeli iri korporativ, kiçik və orta sahibkarlıq, mikrokreditlərə və fiziki şəxslərə verilmiş istehlak kreditlərinə bölünmüşdür. Kreditlərin 174 milyon manatını (53,2%) korporativ kreditlər, 45 milyon manatını (13,8%) kiçik və orta biznes kreditləri, 38 milyon manatını (11,6%) mikrokreditlər, 70 milyon manatını (21,4%) isə pərakəndə müştərilərə verilmiş kreditlər təşkil etmişdir.




Əhalinin mənzillərə olan tələbatını ödəmək üçün TuranBank Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu ilə əməkdaşlıq edir. Hesabat ili ərzində Bank tərəfindən 37%-i güzəştli, 63%-i isə adi ipoteka olmaqla ümumilikdə 12,4 milyon manat həcmində ipoteka kreditləri verilmişdir.

Eyni zamanda, yerli maliyyə fondlarından Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin müvəkkil bankı kimi TuranBank hesabat ilində də sahibkarlıq subyektlərinin maliyyələşdirilməsini uğurla davam etdirmiş və il ərzində Bank tərəfindən kreditləşdirilmiş layihələrin icrası nəticəsində yeni 47 iş yeri açılmışdır. Qeyd edək ki, TuranBank 2020-ci il ərzində Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına 41 müştəri üzrə 893 000 manat məbləğində kredit ayırmışdır. Həmçinin kənd təsərrüfatı texnikalarının alışı məqsədilə Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına 8 müştəri üzrə 178 413,50 manat məbləğində kreditləşmə icra etmişdir.

Həmçinin, yerli maliyyə fondlarından Sahibkarlığın İnkişafı Fondunun müvəkkil bankı kimi TuranBank hesabat ilində də sahibkarlıq subyektlərinin maliyyələşdirilməsini uğurla davam etdirmiş və il ərzində Bank tərəfindən kreditləşdirilmiş layihələrin icrası nəticəsində yeni 41 iş yeri açılmışdır. TuranBank 2020-ci il ərzində Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 17 müştəri üzrə 1 069 000 manat məbləğində kredit ayırmışdır.

2020-ci il ərzində TuranBank 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə qadınlar üçün "8 Mart paketi" kampaniyası keçirmişdir. Bu zaman kampaniyadan yararlanan müştərilər komissiyasız və endirimli faizlə kredit götürmüşlər, həmçinin əmanət yerləşdirən müştərilər vəsaitlərini 1% əlavə olunmaqla yerləşdirmişlər. Kampaniya müştərilər tərəfindən olduqca müsbət qarşılanmışdır.

Həmçinin, TuranBank 2020-ci il ərzində kredit müştərilərini istehlak krediti məhsulunun əsasında "PAYIZ" kampaniyası ilə sevindirmişdir. Bu zaman kampaniyadan yararlanan müştərilər mövcud tariflərdən endirimli faiz və sığortasız kredit götürmüşlər. "PAYIZ" kampaniyası yüksək müştəri məmnuniyyətinə səbəb olmaqla yanaşı, Bankın kredit portfelinin artmasına gətirib çıxartmışdır.

# ZƏNGİLAN RAYONU

Şərqlə qərbin qovuşduğu yerdə yerləşən Zəngilan rayonu ticarətdə əsas əlaqələndirici məntəqələrdən biri olmuşdur. Rayon ticarətlə yanaşı, həm də mədəniyyət abidələri, o cümlədən yaşıllıqlar içində olan özünəməxsus valehedici tarixi mədəniyyət abidəsi ilə yaddaşlara həkk olunub. Zəngilan rayonunun Məmmədbəyli kəndinin ən hündür yerində, yaşıllıqlar arasında XIV əsrə aid Məmmədbəyli türbəsi rayonun qədim mədəni tarixinin bir sübutudur.

Həmçinin, Zəngilan rayonunda yayılmasına görə dünyada ikinci, Avropada isə birinci yerdə olan nadir çinar meşələri vardır.

2020-ci ilin sentyabr ayının 27-də başlayan İkinci Qarabağ Müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələri Zəngilan rayonunun inzibati hüdudlarına çatmış və oktyabr ayının 20-də Zəngilan azad olunmuşdur.



# KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT

Ölkə Prezidentinin həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə banklar tərəfindən köməklik göstərilməsi ilə bağlı sosial məsuliyyətin bölüşdürülməsi təşəbbüsü özünüməşğulluq proqramının genişləndirilməsi işlərində bankların da iştirakına şərait yaradıb. Bankımız proqramın icrasına ilkin qoşulan 8 bankın sırasında yer alaraq 56 nəfər əlilliyi olan şəxsə proqram çərçivəsində dəstək olmuşdur. Bankımız tərəfindən Tərtər və Bərdə rayonunda əlillik dərəcəsi olan 40 nəfər şəxs fəaliyyəti üçün iri buynuzlu mal qara ilə təmin edilmişdir. Eyni zamanda, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərindən, Qazax, Goranboy, Sabirabad, Xaçmaz və Ağcabədi rayonundan əlillik dərəcəsi olan 16 nəfər özünüməşğulluq proqramına müraciətləri əsasında şəxsi fəaliyyət göstərdikləri sahə üzrə ehtiyac duyduqları iş alətləri ilə təmin edilmişdir.

Novruz bayramı ərəfəsində Bankın kollektivi "Ümid Yeri" uşaq sığınacağında qonaq olmuşdur. Balaca dostlar ilə yumurta döyüşdürən Bank əməkdaşları sığınacaq evinin sakinləri ilə birgə əsl bayram əhval-ruhiyyəsi yaratmışdırlar. Uşaqların psixoloji dəstəyə olan ehtiyacını nəzərə alaraq növbəti dəfə peşəkar psixoloq yardımının göstərilməsinə də dəstək olunmuşdur. Qurban bayramı ilə əlaqədar Bankımızın əməkdaşları sığınacağın sakinlərinə yenidən baş çəkmiş, onlara müxtəlif hədiyyə və sovqatlar təqdim etməklə müqəddəs bayram münasibətilə təbrik etmişlər. 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Ümid Yeri" uşaq sığınacağında balaca sakinləri arasında rəsm müsabiqəsi təşkil olunmuş, 13 yaşlı Vüsal Məmmədov "Günəş" adlı kompozisiyası ilə qalib seçilmiş və Bank tərəfindən hədiyyə olaraq kompüter və printer qazanmışdır.

Bank Azərbaycan Talassemiya Federasiyasının təşkilatçılığı ilə ənənəvi xeyriyyə qanvermə aksiyasına da qoşulmuşdur. Aksiyada 45 nəfər əməkdaşımız iştirak etmiş, 37 nəfər talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara təmənnasız qan yardımı etmişlər. Qeyd edək ki, bu il ilk dəfə olaraq eyni gündə Tovuz və Ağstafa filiallarının əməkdaşlarının istəyi ilə Tovuz filialında da bu aksiya keçirilmişdir.

Korporativ Sosial Məsuliyyət prinsiplərinə sadiq qalan Bankımız hesabatlıq ilində Silahlı Qüvvələrə Yardım Fonduna, "YAŞAT" Fonduna və Koronavirusla Mübarizəyə Dəstək Fonduna hər birinə 100 min manat məbləğində ianə köçürmüşdür.

# QUBADLI RAYONU

Olduqca rəngarəng təbiəti olan Qubadlı rayonunun ərazisindən iki böyük Həkəri və Bərgüşad dağ çayları keçir. Fərqli arxitekturası və maraqlı tarixçəsi olan Laləzar körpüsü də məhz 1867-ci ildə Bərgüşad çayı üzərində tikilmişdir.

Qubadlı bədnam qonşularımız tərəfindən 1993-cü il, 31 avqust tarixində işğal olunmuşdur. İkinci Qarabağ müharibəsi zamanı Qubadlı uğrunda şiddətli döyüşlər gedib və 2020-ci il oktyabrın 25-də Qubadlı şəhəri işğaldan azad edilmişdir.

**LALƏZAR KÖRPÜSÜ**



# RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

2020-ci ildə baş vermiş pandemiya səbəbindən dünya iqtisadiyyatı zərər görmüş, fundamental yanaşmalar özünü doğrultmamışdır. Buna səbəb iqtisadiyyatın davamlı zəncirvari proses ilə hərəkət etməsi əvəzinə bu halqaların qırılması və qırılmalar nəticəsində öhdəlik üzərində qurulmuş bir sistemdə bu öhdəliklərin dərhal icrası iri resurs çatışmazlıqları ilə nəticələnmişdir. Bu şəraitdə yalnız xüsusi risk yanaşması olan və buna hesablanmış maliyyə resurslarına malik təşkilatlar ağır iqtisadi durumdan uğurla çıxmağa müvəffəq olmuşlar. Bu məqsədlə TuranBankın işçi heyəti daim hesablamalar aparmış, ən ekstremal şəraitləri simulyasiya edərək müvafiq önləyici addımları hadisələrdən çox əvvəl atmışdır.

Belə ki, risk idarəetməsinə məsul strukturlar daim nəzarətedici orqanlarla və təmsil olunduğu digər təşkilatlarla qarşılıqlı əlaqədə olmuş, tövsiyələrdən faydalanaraq risk idarəetməsi sahəsində yeni metodologiyaların tətbiqinə nail olmuşdur.

Bu sıradan, 2020-ci il ərzində bir çox yeni hesabat növləri tərtib olunmuş, mövcud metodika və yanaşmalar təkmilləşdirilmişdir. Buna misal olaraq, kredit risklərinin mənbəyi kimi iqtisadiyyatın ayrı-ayrı sektorlarında baş vermiş axsamalarla əlaqəli olaraq bu sahələrə yönəldilmiş kreditlərin müqayisəli təhlilləri aparılmış, əldə olunmuş nəticələrə əsasən yeni inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Buna əlavə olaraq, müştərilərə spesifik qiymətləndirmələr icra olunmuş daxili reytinq sistemi formalaşdırılmışdır.

Qeyd etdiyimiz kimi, likvidliyin strateji və dinamik idarəedilməsi əsas tapşırıqlardan olduğundan likvidlik səviyyəsi müəyyən olunmuş limitlərin üzərində saxlanmışdır. 2020-ci il üçün milli valyutanın devalvasiyası bir çox hallarda aktual hesab edildiyi üçün qabaqlayıcı tədbirlər icra edilərək hedc (sığorta) alətlərinin tətbiqinə geniş yer verilmişdir. Bunun nəticəsində, 2020-ci il valyuta və qiymətli kağızların idarəedilməsindən mənfəətlə başa vurulmuşdur.

Əməliyyat və digər qeyri-maliyyə risklərinin növləri geniş olduğundan bu istiqamətdə nəzarət bir sıra strukturlar tərəfindən icra olunur. Bu məqsədlə davamlı monitorinqlər keçirilir və aşkarlanmış nöqsanların reyestri hazırlanır. Həmçinin, yeni məhsulların yaradılması eyni zamanda yeni fırıldaqçılıq üsullarının da meydana gəlməsi ilə nəticələnmişdir. Bu hallarla mübarizə istiqamətində TuranBank aparıcı təşkilatlarla əməkdaşlıq edərək qarşılıqlı təcrübə mübadiləsində iştirak edir.

# ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR. UYĞUNLUQ SİYASƏTİ.

TuranBank ASC Çirkli Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsi ilə Mübarizə (bundan sonra "ÇPY/TMM") istiqamətində Bankın daxili nəzarət sistemini ölkə qanunvericiliyinin və beynəlxalq normativlərin tələblərinə uyğun olaraq qurmuşdur. Bununla yanaşı, Bankın ÇPY/TMM üzrə daxili nəzarət sistemi, tələblərə daim adekvat olması məqsədilə ilə təkmilləşdirilir.

Bunun üçün Bankın ÇPY/TMM üzrə prinsiplərini aydın əks etdirən qayda və metodologiyaları hazırlanmışdır. ÇPY/TMM üzrə prosedurları yerli qanunvericilik və beynəlxalq tövsiyələr (FATF 40+9 standartları, Bazel Komitəsi, Wolfsberg qrupunun prinsipləri) əsasında hazırlanmışdır. Bankın siyasəti və prosedurları qanunvericilikdə, beynəlxalq normativlərdə baş vermiş yeniliklər və dəyişikliklərə uyğun olaraq yenilənir.

TuranBank ASC müştərilərə (fiziki və hüquqi şəxslər, müxbir banklar) adekvat eyniləşdirilmə-verifikasiya prosedurlarının həyata keçirilməsi üçün "Müştərini Tanı" prinsiplərini tətbiq edir. Bank bununla bərabər olaraq müştərilərə və əməliyyatlara risk-əsaslı yanaşma prinsipləri əsasında risk qiymətləndirilməsini edir. Müştərilərdən eyniləşdirmə-verifikasiya prosedurları nəticəsində ÇPY/TMM üzrə alınmış məlumatları sənədləşdirilir. Eyni zamanda, Bank müştəri profili üzrə məlumatların yenilənməsini daxili qaydalarına uyğun olaraq həyata keçirir.

Bank tərəfindən ÇPY/TMM üzrə daxili qayda və prosedurların həyata keçirilməsinə nəzarət etməyə, həmçinin monitorinq olunmalı əməliyyatlarla bağlı müvafiq hesabatları hazırlamağa və təqdim etməyə cavabdeh olan məsul şəxs təyin edilmişdir.

Əməkdaşların ÇPY/TMM üzrə təcrübə və biliyinin artırılması məqsədilə mütəmadi olaraq təlimlər həyata keçirilir. Təlimlər proqramı qanunvericilikdə baş vermiş yenilik və dəyişiklikləri, şübhəli əməliyyatların təsbit edilməsi təcrübəsi, müştəri-ölkə qrupları üzrə risk əsaslı yanaşmıa prinsiplərinin tətbiqi, eyniləşdirmə-verifikasiya prosedurlarının tətbiqini əhatə edir. Təlimlərə aid bütün materiallar və davamiyyət cədvəli Bank tərəfindən sənədləşdirilir.

Bununla yanaşı, qanunvericilikdə, normativ aktlarda hər hansı dəyişikliklərin baş verməsindən asılı olaraq, Bankın əməkdaşları yeniliklər, dəyişikliklər barədə davamlı olaraq məlumatlandırılır.

Bankda ÇPY/TMM üzrə görülən tədbirlərin adekvatlığının yoxlanılmasını təmin edən daxili audit mexanizmi fəaliyyət göstərir. Daxili audit mexanizmi vaxtında qanun və qaydaların tələblərinə uyğun olaraq, risklərin maksimum dərəcədə azaldılması istiqamətində fəaliyyəti həyata keçirir.

# ŞUŞA ŞƏHƏRİ

Şuşa Azərbaycan şəhərsalma sənətinin ən mühüm nümunəsidir. Şuşa şəhəri XVIII əsrdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən salınmışdır.  Şəhərin simvolu olan və tarixi mərkəzini əhatə edən Şuşa qalası Molla Pənah Vaqifin birbaşa nəzarəti altında inşa edilmişdir.

1992-ci ilin 8 may tarixində işğala məruz qalmış Şuşa şəhəri dünya hərb tarixinə qızıl hərflərlə yazılmış döyüş yolu ilə 8 noyabr 2020-ci il tarixində yenilməz ordumuz tərəfindən azad olunmuşdur.

**ŞUŞA QALASI**



# İNFORMASİYA TEXNOLOGİYALARI VƏ RƏQƏMSALLAŞMA

İnformasiya texnologiyaları bank sistemində artıq ən prioritet sahələrdən biri hesab edilir. Koronavirus pandemiyası rəqəmsallaşmanın inkişafına ciddi təkan vermişdir. Artıq iqtisadiyyatın bütün sahələrində olduğu kimi bank sektorunda da sürətli şəkildə rəqəmsallaşma bazarın ən önəmli tələblərindən birinə çevrilmişdir. Bank sektorunda dövriyyənin böyük hissəsi artıq elektron kanallar vasitəsilə həyata keçirilməkdədir.

TuranBank bazarın bu tələbini də nəzərə alaraq  son illərdə rəqəmsallaşmanın daha sürətli şəkildə həyata keçirilməsi üçün müvafiq addımlar atmışdır. Rəqəmsal bankçılığı tətbiq etmək məqsədilə Bankın təşkilati strukturunda dəyişikliklər edilmiş, Rəqəmsal Transformasiyalar departamenti yaradılmışdır. Bu departament yeni rəqəmsal məhsulların yaradılmasını və mövcud xidmət proseslərinin yeni texnologiyalara əsaslanan kanallar vasitəsilə həyata keçirilməsini təmin edir.

2020-ci ildə Bankın tam yeni internet bankçılıq, mobil bankçılıq sistemləri müştərilərin istifadəsinə təqdim edilmişdir. Bu sistemlər müştərinin Banka gəlmədən, məsafədən xidmət əldə etməsini, müxtəlif büdcə və digər təşkilatlar xidmətlər üçün ödənişlər həyata keçirməsini, pul köçürmələrinin edilməsini, kreditləri, depozitləri, əməliyyatları barədə məlumatlar əldə etməsini təmin edir. Bütün əməliyyatların təhlükəsiz şəkildə, qanunvericiliyə uyğun şəkildə gücləndirilmiş elektron imzadan istifadə etməklə həyata keçirilməsi təmin edilmişdir. Bundan əlavə müştərilər artıq Bankın kampaniyaları, məzənnələr  və digər yeniliklər barədə məlumatları mobil tətbiq və ya internet bank sistemi vasitəsilə rahatlıqla əldə edə bilirlər.

2020-ci ildə TuranBankda müştərilər tərəfindən həyata keçirilmiş əməliyyatların təqribən 30%-i internet bank sistemi və mobil tətbiq vasitəsilə həyata keçirilmişdir. TuranBank tərəfindən müştərilərə təqdim edilmiş mobil tətbiq hazırda “Google Play” marketdə Azərbaycan banklarının mobil tətbiqləri arasında ən yüksək qiyməti əldə etmişdir.Belə ki, müştərilər TuranBank mobil tətbiqinə 5 ballıq şkala üzrə 4.8 qiyməti vermişdirlər. Bu, Azərbaycan bank sektorunda mobil tətbiqlər arasında ən yüksək qiymətdir.

Növbəti uğurlu layihələrdən biri də TuranBankın Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tətbiq edilmiş Ani Ödənişlər Sisteminə (AÖS) qoşulmasıdır. Belə ki, 2020-ci ildə TuranBank Ani ödənişlər sisteminə qoşulan və müvafiq inteqrasiyanı həyata keçirən ilk banklardan biri olmuşdur.  Bu sistemin əsas üstünlüyü ondan ibarətdir ki, TuranBank müştərisi AÖS vasitəsi ilə hər hansı digər bankda hesabı olan müştəriyə vəsait köçürdükdə bu vəsaitin digər bankda olan müştərinin hesabına çatması bir neçə saniyə ərzində tamamlanmış olur. Onu da əlavə etmək istərdik ki, AÖS sistemi Bankın internet bank sisteminə və mobil tətbiqinə  də inteqrasiya edilmişdir. Başqa sözlə desək, fiziki və ya hüquqi şəxslər başqa bankda olan hesaba saniyələr içində hər hansı vəsaiti köçürmək imkanı qazanmışdırlar.

Qeyd olunanlardan əlavə, Bankın bir sıra xidmətlərində optimallaşdırmalar, sistemlərin daha sürətli fəaliyyət göstərməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. İl ərzində Bankda heç bir ciddi informasiya təhlükəsizliyi insidenti baş verməmişdir.

Növbəti il üçün də xidmətlərin optimallaşdırılması, rəqəmsal transformasiya, müştərilərə məsafədən təqdim edilən xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, infrastrukturun gücləndirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması, informasiya təhlükəsizliyi üzrə adekvat müdafiə tədbirlərinin həyata keçirilməsi əsas hədəflər olacaqdır. Bank müştərilərə dayanıqlı, keyfiyyətli və etibarlı xidmət göstərməyə davam edəcək, məsafədən göstərilən xidmətlərin əhatə dairəsini genişlətməklə, onların Banka gəlmədən təhlükəsiz, sərbəst və rahat şəkildə Bankla əməkdaşlığını təmin edəcək və “bizimlə etibarlıdır” şüarına hər zaman sadiq qalacaqdır.

# AĞDAM ŞƏHƏRİ

Ağdam qədim tarixi olan memarlıq və incəsənət abidələri ilə zəngindir. Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Xaçındərbətli türbəsi, Şahbulaq adlı ərazidə Pənahəli xan tərəfindən XVIII əsrdə inşa edilmiş Şahbulaq qalası, həmçinin Ağdam Cümə məscidi şəhərdə xüsusi diqqət çəkən önəmli tarixi abidələr sırasında yer alır.

10 noyabr 2020-ci il tarixində qüvvəyə minmiş Dağlıq Qarabağ atəşkəs bəyanatının şərtlərinə əsasən 20 noyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonuna daxil olması ilə onun işğalına son qoyulmuşdur.

**ŞAHBULAQ QALASI**



# İNSAN RESURSLARI

İnsan resurslarının idarə edilməsi anlayışı biznesin ən vacib qaynağı olan insan gücünün müəyyən edilmiş hədəflər istiqamətinə uyğun, səmərəli şəkildə istifadəsini əhatə edən metod və üsulları özündə birləşdirir.
Məqsədlərə çatmaq üçün doğru insanların seçilməsi və motivasiyası müəyyən edilmiş hədəfi daha əlçatan edir. İnsan resurslarının idarə edilməsinin fəaliyyəti Bankın strategiyasına fokuslanır. Bu fəaliyyətə qayda və prosedurların yazılması və tətbiqi ilə yanaşı, həmçinin işçilərlə mütəmadi şəkildə qarşılıqlı təmasda olmaq, onların malik olduqları potensialları üzə çıxararaq daha aydın şəkildə nümayiş etdirmələri və optimal fəaliyyət səviyyəsinə çatmaları üçün lazımi tədbirlərin həyata keçirməsi daxildir. Hesabat ili ərzində 22 nəfər Baş ofis, 44 nəfər filial üzrə, ümumilikdə 66 nəfər olmaqla əməkdaş işə qəbul edilib.
Müşahidələrə və təcrübələrə əsaslanaraq onu qeyd etmək olar ki, əməkdaşların işlədikləri yerə mənəvi bağlılıqlarını möhkəmləndirən motivasiya tədbirlərinin tətbiqi hər zaman effektiv nəticələr verir. Belə ki, hesabat ili ərzində 18 nəfər əməkdaş üzrə bankdaxili rotasiya və 94 nəfərdə isə karyera artımı həyata keçirilmişdir. Hədəflərdən biri də müştəri xidməti strukturları üzrə yeni vəzifə təlimatlarının hazırlanması işinin qarşıya qoyulması olmuşdur. Bu məqsədlə İnsan Resurslarının İdarə Edilməsi Departamentinin (İRİED) Bankın digər strukturları ilə qarşılıqlı işinin nəticəsi olaraq filial və şöbələr üzrə 139 vəzifə pilləsi üzrə yeni vəzifə təlimatları təsdiq edilmişdir.
TuranBankın "Dəyərlərimizi qoruyaq və təbliğ edək" layihəsi çərçivəsində görkəmli jurnalist, tanınmış ictimai xadim, pedaqoq Nəsir İmanquliyevin ömür yolundan bəhs edən "Mətbuat fədaisi" kitabının 14.02.2020-ci il tarixində keçirilmiş təqdimat mərasimində Bank əməkdaşlarının iştirakı təmin edilmişdir. Gənclərin yaradıcı və innovativ potensialının üzə çıxarılması və bu potensialdan maksimum faydalanmaq məqsədi ilə gənc məzunların iş təcrübəsi qazanması üçün Bank tərəfindən universitetlərlə əməkdaşlıq edilmişdir. Əmək yarmarkasında müxtəlif ixtisaslı tələbələrin anketləri əldə olunaraq Bankın ümumi CV bazasına əlavə edilmiş və müvafiq departamentlərə yönləndirilmişdir. "Gənclərə dəstək" layihəsi öz fəaliyyətini 2020-ci ildə də davam etdirərək 2 qrup üzrə kredit mütəxəssislərinin və 1 qrup üzrə müştəri təmsilçilərinin hazırlanması işini müvəffəqiyyətlə yekunlaşdırmışdır.
Bundan əlavə, Beynəlxalq Miqrasiya Təşkilatı, Dövlət Məşğulluq Xidmətləri və Beynəlxalq Təlim və Layihə Mərkəzinin birgə təşkilatçılığı ilə regionlarda keçirilən əmək yarmarkalarını və filial əməkdaşlarımızın bu yarmarkalarda iştirakını xüsusi qeyd etmək olar. Bu da öz növbəsində regionlarda yaşayan gənclərə karyeralarını qurmaq imkanı yaradır.
Hesabat dövrünün əvvəllərində Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) ekspertləri tərəfindən keçirilən təlimlər xüsusilə yaddaqalan olmuşdur. Belə ki, 2019-cu ildə təşkil olunmuş təlimlərin davamı olaraq "Azərbaycan və Mərkəzi Asiya Elektron və Rəqəmsal Maliyyə Xidmətləri" texniki yardım proqramı çərçivəsində Bankın bir sıra kredit və əməliyyat mütəxəssisləri üçün elektron və rəqəmsal maliyyə xidmətləri üzrə təkrar olaraq "Təlimçilər üçün təlim" keçirilmişdir. Daha sonra isə Bankda yeni məhsulların yaradılması istiqamətində Beynəlxalq Maliyyə Korporasiyasının Bakı ofisində Bankın müvafiq departament və filial əməkdaşlarının iştirakı ilə vebinar keçirilmişdir. Həmçinin, Xaçmaz, Gəncə, Zaqatala və Cəlilabad filiallarının bir qrup kredit əməkdaşları da Quba, Gəncə, Şəki və Lənkəran şəhərlərində CLARA sisteminin tətbiqi üzrə keçirilən təlimlərdə iştirak etmişlər.
Dünyanı ağuşuna alan koronavirus pandemiyasının fəsadları ölkəmizdən və iqtisadiyyatımızdan yan ötməyib. Bank bu dövrdə əməkdaşların və onların ailələrinin sağlamlığının qayğısına qalaraq məsafəli iş rejimini tətbiq etmişdir. Bu çətin dövrün sınaqlarının öhdəsindən əməkdaşlarla birgə gələrək, onların ruhdan düşməmələri üçün Bank tərəfindən lazımi bütün tədbirlər həyata keçirilib və davam etməkdədir. Əməkdaşlar Bankın vəsaiti hesabına mütəmadi şəkildə tibbi yoxlanışlardan keçirilirlər, gündəlik tibbi maska və əlcəklərlə təmin olunurlar. Xüsusilə qeyd etməliyik ki, yaşanan çətinliklərə baxmayaraq müştəri xidməti strukturlarına tətbiq olunan motivasiya tədbirlərində heç bir dayanmalar olmadı. Pandemiya dövründə İRİED Bankda işin dayanıqlığını təmin etmək məqsədilə işçilərin növbəlilik qrafiki üzrə məsafəli iş rejiminin pozulmaması hallarına nəzarəti öz üzərinə götürmüşdür. Bank əməkdaşları üçün sağlam iş mühitini təmin etmək, yeniliklərə açıq olmaq, əməkdaşlar arasında komanda ruhunu və ümumi maraq anlayışını inkişaf etdirmək hər zaman başlıca məqsədimiz olub.
TuranBank ailəsi olaraq yarandığımız ilk gündən dövrün tələblərinə cavab verməklə daim inkişafa istiqamətlənmişik.

# KƏLBƏCƏR RAYONU

"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində "çay üstündə qala" deməkdir.
Hazırda Kəlbəcəri dünyada tanıdan həm də əhəmiyyətli tarixi abidələridir.

Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Bu ərazidə yerləşən dünya əhəmiyyətli abidə kimi qeydiyyata alınmış Xudavəng monastırı VIII–IX əsrlərdə inşa olunmuşdur.

Kəlbəcər 1993-cü ilin aprel ayının 3-dən Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. Nəhayət ki, 25 noyabr 2020-ci il tarixində noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Kəlbəcər rayonu işğaldan azad edilmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olmuş və nəzarəti ələ almışdır.

**XUDAVƏNG MONASTRI**



TuranBank
...Bizimlə etibarlıdır

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Azərbaycanda istər daxili, istərsə də xarici investisiyaların cəlb edilməsi üçün əlverişli iqtisadi, siyasi və sosial şərait yaradılıb və bu sahədə zəruri tədbirlər fasiləsiz olaraq davam etdirilir. Azərbaycanın apardığı siyasət, ardıcıl və məqsədyönlü xarakter daşıyan islahatlar beynəlxalq ictimaiyyətin, eləcə də beynəlxalq təşkilatların diqqətindən yayınmır. Ölkəmizdə xüsusilə sosial-iqtisadi sahədə icra edilən islahatlar paketi öz mütərəqqi nəticələrini verir və bu nəticələr beynəlxalq qurumların reytinq - lərində də öz əksini tapır. Dünya Bankının "Doing Business 2020" hesabatı da bu baxımdan diqqət çəkir. Fəxrlə qeyd edə bilərik ki, Azərbaycan Dünya Bankının "Doing Business 2020" hesabatında 10 ən islahatçı ölkənin sırasında yer alıb. Bununla da, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Dünya Bankı tərəfindən ardıcıl iki dəfə dünyanın ən islahatçı on ölkəsindən biri olaraq tarix yazdı. Bundan başqa, Azərbaycan "Davamlı inkişaf hesabatı 2020" sənədində dünyanın 166 ölkəsi arasında "davamlı inkişaf məqsədləri indeksi" üzrə 54-cü pillədə qərarlaşmışdır ki, bununla da, Azərbaycan "davamlı inkişaf məqsədləri indeksi"nə görə dünyada hər üç ölkədən ikisini qabaqlaya bilib və bu indeksə görə Azərbaycan regional lider olub. Aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırır.

Bütün bu faktların fonunda Bankımız hesabatlılıq ilində xarici maliyyə qurumları ilə KOS subyektlərinin və ticarətin maliyyələşməsi istiqamətində danışıqları davam etdirərək yeni əməkdaşlıqların qurulmasına nail olmuş, texniki yardım layihələrinin alınması istiqamətində beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqları davam etdirmişdir. Hesabat ilində TuranBank Avropa Yenidənqurma və İnkişaf Bankı ilə "Maliyyə vasitəçilərinin potensialının gücləndirilməsi üzrə Texniki Əməkdaşlıq proqramı" çərçivəsində, MKOS subyektlərinin maliyyələşdirilməsi potensialının artırılması istiqamətində fealiyyətini davam etdirmişdir. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə "Risklərin idarə edilməsi və Komplayens üzrə" yeni Texniki Əməkdaşlıq sazişi imzalamışdır. Texniki dəstək layihəsi çərçivesində AYİB tərəfindən cəlb edilmiş TA Consult Partners konsultant şirkəti Banka risk və uyğunluq siyasətinin idarə edilməsi və uyğunluq (komplayens) prosedurlarının beynəlxalq normalara uyğunlaşdırılması işində dəstək göstərmişdir.

Hesabatlılıq ilində TuranBank ECO Ticarət və İnkişaf Bankı ilə beynəlxalq ticarət əməliyyatlarının maliyyələşdirilməsini genişləndirmək məqsədilə 2 milyon ABŞ dolları məbləğində kredit sazişi imzalamışdır. Cəlb olunan vəsaitlər həm üzv, həm də digər ölkələr arasında idxal-ixrac əməliyyatlarının genişləndirilməsinə, müştərilərin ticarət əməliyyatlarının dəstəklənməsinə imkan yaradacaq. Bildirək ki, bu, ECO Ticarət və İnkişaf Bankı ilə imzalanmış sayca 3-cü sazişidir. Belə ki, Bank əvvəlki illərdə də bu maliyyə qurumundan kiçik və orta sahibkarlığın (KOS) və ticarətin maliyyələşdirilməsi üçün maliyyə vəsaiti cəlb edib.

Bundan əlavə, TuranBank və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) kənd təsərrüfatı sahəsində əməkdaşlığını gücləndirmişdir. Hesabatlılıq ilində TuranBank Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanmış və maliyyə təşkilatlarına fermerlərin kredit ödəmə qabiliyyətini qiymətləndirməyə imkan verən Nağd Vəsait Axınları ilə Əlaqələndirilmiş Kənd Təsərrüfatı Risklərinin Qiymətləndirilməsi (CLARA) sistemini tətbiq etmək məqsədilə bu qurumla yeni müqavilə imzalamışdır. Bank Beynəlxalq Maliyyə Korporasiyası ilə imzaladığı "Project Services Agreement" adlı müqavilə çərçivəsində CLARA layihəsinin icrasını uğurla başa çatdırmışdır. CLARA nağd vəsait axınlarının proqnoz hesablamaları vasitəsilə risklərin qiymətləndirilməsi və kreditləşdirmə pro - seslərini avtomatlaşdıraraq, fermerlərin maliyyə resurslarına çıxışını asanlaşdırmağa kömək edir. Sistem IFC tərəfindən hazırlanıb və ona məxsusdur. Bu fəaliyyət, IFC-nin İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə tərəfdaşlıqda icra olunan Azərbaycan İnvestisiya Mühiti və Aqrobiznesin Rəqabətliliyi Layihəsi çərçivəsində həyata keçirilən layihənin bir hissəsidir. Bu müqavilə çərçivəsində tətbiq edilməsi planlaşdırılan yeni sistem, Bankın strateji kursuna uyğun olaraq və onun ölkədə kənd təsərrüfatının inkişafına böyük önəm verdiyini nəzərə alaraq, Azərbaycanın bütün bölgələrində sahibkarlığın inkişafına yönəldiləcəkdir.

Sonda qeyd etmək istərdik ki, Respublikamızda biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər, sahibkarlığı dəstəkləyən sərəncamlar Azərbaycanın iqtisadiyyatı ilə bağlı müsbət proqnozlar beynəlxalq əmək - daşlığa perspektivlər açmaqla Bankımızı yeni xarici tərəfdaşlarla təmasları artırmağa sövq edir. Bankımızın apardığı uğurlu danışıqlar nəticəsində dünyanın nüfuzlu maliyyə institutları olan Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı ilə əməkdaşlığı növbəti ilə də davam etdirəcək.

TuranBank
...Bizimlə etibarlıdır

# LAÇIN RAYONU

Laçın rayonunda yerləşən 300-ə yaxın tarixi, mədəniyyət və memarlıq abidələri, qala tipli və qəbirüstü, eləcə də Qafqaz Albaniyası dövrü barədə bəhs edən abidələr,süjetli daşlar zəngin tariximizin qədimi səhifələri barədə geniş bilgilər verir. Laçın rayonunun Hüsülü kəndinin ərazisində 1761-ci ildə inşa edilmiş Həmzə Sultan sarayı yerləşir.

Rayon ərazisi Turşsu və digər mineral tərkibli bulaqlar, həmçinin qızıl, civə, kükürd, qrafit, əhəng daşı, vulkanik tuf daşları, mərmər, ipək daşı və digər faydalı qazıntılarla zəngindir.

1992-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmiş Laçın rayonu 28 il sonra 1 dekabr 2020-ci il tarixindən etibarən yenidən Respublikamızın nəzarəti altına keçmişdir.

**HƏMZƏ SULTAN SARAYI**



# XƏZİNƏDARLIQ FƏALİYYƏTİ

2020-ci il mövcud hadisələr fonunda Azərbaycan tarixinin şanlı zəfərinin yaşandığı il kimi yaddaşlarımızda qalan il oldu. Bu il iqtisadi fəaliyyətin və aktivliyin davamlı inkişafına neqativ təsir göstərən müxtəlif hadisələr ilə başa çatdı. Lakin ilin sonunda torpaq bütövlüyümüzün bərpası il ərzində baş vermiş bütün neqativ hadisələri bizlərə unutdurmaqla bərabər iqtisadi yenidənqurmaya və tərəqqiyə məsuliyyətimizi artırmaqdadır.

Bankımızın xəzinədarlıq fəaliyyəti 2020-ci ildə əsasən bazar və likvidlik risklərin optimallaşdırılması və idarəedilməsi istiqamətində qurulmuşdur. Xəzinədarlıq fəaliyyətinin əsas prioritet istiqamətlərini aktiv və öhdəliklərin səmərəli idarə edilməsi, likvidlik göstəricilərinin yüksək saxlanması, bazar risklərinin mümkün təsirlərinin minimuma endirilməsi və Bankın əsas maliyyə göstəricilərinin tələblər daxilində saxlanılması təşkil etmişdir. Lakin bununla bərabər Bankın maliyyə bazarlarındakı aktivliyi artırılmış, likvidlik göstəricilərinin yüksək tutulması fonunda qısamüddətli maliyyə alətlərinə yatırımlar edilmişdir.

2020-ci ildə baş verən neqativ hadisələrin fonunda Bank müştərilərinin və sadə vətəndaşlarımızın valyutaya olan ehtiyaclarının təmin edilməsində fasiləsiz dəstək vermişdir. Bununla yanaşı Bankın faiz riskləri və faiz xərcləri üzrə müvafiq təhlillər aparılmış və faiz xərclərinin optimallaşdırılması davamlı olaraq həyata keçirilmişdir. 2020-ci ildə də Xəzinədarlıq departamenti öz funksiyasına uyğun olaraq gəlir mərkəzi kimi fəaliyyət göstərməyə davam etmişdir. Hesabat ilində qiymətli kağızlar və bazar əməliyyatlarının həcmi və mənfəətliliyi xeyli artırılmışdır. Bu il valyuta bazarlarında ticarətlə yanaşı, qiymətli kağızlar bazarında sərbəst vəsaitlərin rentabelli istifadə edilməsi əsas gəlir istiqaməti olmuşdur. 2019-cu ildən başlayaraq davam edən sabit məzənnə siyasəti fond bazarlarının sürətli bərpasına təkan vermişdir və Bankımız bu sahədə gəlirlərin və sahələrin optimal diversifikasiyasına nail olmuşdur.

2020-ci ilə əsaslanaraq demək olar ki, əsas məqsədimiz olan Bank aktivlərinin səmərəli yerləşdirilməsi, likvidlik göstəricilərinin yüksək tutulması və həmçinin bazar risklərinin Banka təsirinin minimallaşdırılması tədbirləri öz bəhrəsini vermişdir. Bu strateji hədəflər əməkdaşlıq etdiyimiz partnyorlar və müştərilərin Banka olan əminliyi üçün əsas istinad nöqtələridir və gələcək illərdə də Bank bu ənənəyə sadiq qalaraq, müştəri məmnuniyyətini fəaliyyətində rəhbər tutaraq qazandığı güvəni daha da möhkəmləndirəcək.



# ZƏFƏR GÜNÜ

Torpaqlarımızın uzun illər davam edən düşmən təcavüzündən azad olunması uğrunda 44 günlük savaşda qalibiyyət qazanmaq üçün bütün Azərbaycan xalqı düşmənlə mübarizəyə səfərbər olaraq, həm ön cəbhə bölgəsində, həm də arxa cəbhədə mənfur düşmənə layiqli cavab verərək, birlik, möhkəm iradə və əzm nümayiş etdirdi.

Döyüşlər zamanı xalqın və Ali Baş Komandan İlham Əliyevin dəstəyini hər addımında hiss edən Müzəffər Ordumuzun gücü dəmir yumruğa çevrilərək düşməni torpaqlarımızdan qovdu, Qarabağın Azərbaycan olduğunu bütün dünyaya bəyan etdi.

Ermənistanın kapitulyasiyaya getməsi və dövlət başçılarının razılaşdırdığı müqaviləyə əsasən, 2020-ci ilin noyabr ayının 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr tarixinədək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

Şanlı qələbəmizi hər il xüsusi qeyd etmək üçün Prezident İlham Əliyev
"8 Noyabr - Zəfər Günü" nün təsis edilməsi barədə sərəncam imzalamışdır.

**Torpaqlarımıza qayıdırıq, özümüzlə dirçəliş, yeni həyat gətiririk.**

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"TuranBank" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

***Rəy***

Biz "TuranBank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin (birlikdə "Qrup" adlandırılır) 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Qrupun 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün şəkildə əks etdirir.

***Rəy üçün Əsas***

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Həmin standartlar əsasında bizim məsuliyyətlərimiz hesabatımızın Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (MBESŞ Məcəlləsi) əsasən Qrupdan müstəqilik və MBESŞ Məcəlləsi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Əsas Audit Məsələləri***

Əsas audit məsələləri, bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik məsələlərdir. Bu məsələlər ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlər barədə ayrıca rəy vermirik.

*Müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı*

Konsolidə edilmiş maliyyə hesabatlarında 8 saylı və 9 saylı Qeydlərə baxın.

*Əsas audit məsələsi*

Biz, müştərilərə və banklara verilmiş kreditlər üzrə qalığın əhəmiyyətli olması və müvafiq ehtiyat məbləğinin hesablanması üçün tələb olunan qərarlar və qiymətləndirmələrin əhəmiyyətini nəzərə alaraq, bu məsələyə diqqət yetirmişik.

Ehtiyat məbləği, müştərilərə və banklara verilmiş kreditlər üzrə rəhbərliyin ehtimal olunan kredit zərərinə ("EOKZ") dair qiymətləndirməsini təmsil edir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

EOKZ-nin kollektiv qiymətləndirilməsi qalıqlara təyin edilmiş Bankın daxilində hazırlanmış riski ölçmə cədvəllərindən istifadə edən modellərə əsaslanır. EOKZ-nin fərdi qiymətləndirilməsi müxtəlif ssenarilər əsasında fərdi qalıqlar ilə bağlı gözlənilən gələcək pul vəsaitlərinin hərəkətindən istifadə edən modellərə əsaslanır. Modellərin tərtibatı və giriş məlumatları rəhbərliyin təxminlərinə əsaslanır.

Konsolidə edilmiş maliyyə hesabatlarına edilmiş 2 saylı Qeyd "Maliyyə Hesabatlarının Hazırlanmasının Əsası", 3 saylı Qeyd "Mühüm Mühasibat Uçotu Siyasətləri", 5 saylı Qeyd "Uçot siyasətinin Tətbiqi zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr", 8 saylı Qeyd "Kreditlər və banklardakı depozitlər", 9 saylı Qeyd "Müştərilərə verilmiş Kreditlər" və 25 saylı Qeyd "Maliyyə və Sığorta Risk İdarəçiliyi" ehtiyatla bağlı ətraflı məlumatları əks etdirir.

*Bu məsələyə audit zamanı yanaşmamız*

Bankla əlaqədar olaraq:

Biz, MHBS-in tələblərinə uyğun olaraq ehtiyatın hesablanması üçün əsas metodologiyanı qiymətləndirmişik.

Biz, EOKZ-nin fərdi qiymətləndirilməsini tələb edən rəhbərlik tərəfindən müəyyən edilməmiş əhəmiyyətli kreditləri (nümunə əsasında) təhlil etmişik və bunun uyğun olub-olmadığına dair şəxsi qərarımızı formalaşdırmışıq.

Biz, EOKZ-nin kollektiv və fərdi qiymətləndirilməsi və istifadə edilən məlumatlar və fərziyyələr üzrə istifadə edilən modellər və hesablamaların əsasını və fəaliyyətini (nümunə əsasında) test etmişik. Bizim işimiz mövcud olan kənar dəlillərlə hazırlanmış əsas fərziyyələrin və təxminlərin müqayisəsindən, digər və faktiki təcrübələrlə bağlı şəxsi biliklərimizi, yenidən modelləşdirmə vasitəsilə modellərin sınaqdan keçirilməsindən və müxtəlif analitik və digər prosedurların tətbiqindən ibarətdir.

Bankın törəmə müəssisəsinə münasibətdə:

Zəruri hallarda və yuxarıda göstərilənlərə uyğun olan prosedurlar Bankın törəmə müəssisəsi ilə əlaqədar olaraq da həyata keçirilmişdir.

***Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İqtisadi Subyektin İdarə edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət verilmir. Təhriflər saxtakarlıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutları əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamama riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamama riskindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər çərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən edilmiş uçot təxminlərinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında qənaətə gəldiyimiz halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqəti cəlb etməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın təqdim edilməsi tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərlə əlaqə yaradırıq.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə bağlı bəyanat verir və həmin şəxsləri əsaslı şəkildə müstəqilliyimizə təsir etməsi güman edilə bilən bütün qarşılıqlı əlaqələr və digər məsələlər, habelə zəruri hallarda müvafiq ehtiyat tədbirləri barədə məlumatlandırırıq.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxsləri məlumatlandırdığımız məsələlər arasından, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik olmuş və bu səbəbdən, əsas audit məsələlərinə daxil edilmiş məsələləri müəyyən edirik. Məsələ barəsində ictimaiyyətə açıqlamanın qanunvericilik və ya normativ aktlarla qadağan edilməsi halları və ya nadir hallarda bu məsələnin hesabatımızda açıqlanmasının mənfi nəticələrinin belə açıqlamanın ictimai əhəmiyyətli faydalarından artıq olması əsaslı şəkildə ehtimal edildiyi üçün, bu məsələnin hesabatımızda açıqlanmamalı olması qənaətinə gəldiyimiz hallar istisna olmaqla, biz bu cür məsələləri auditor hesabatımızda təqdim edirik.

Baker Tilly Azerbaijan

27 may 2021-ci il
Bakı, Azərbaycan Respublikası

TuranBank
...Bizimlə etibarlıdır

"TURANBANK" ASC

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXİNƏ**
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 118,046 | 63,656 |
| Banklara verilmiş kreditlər və depozitlər | 8 | 39,614 | 42,516 |
| Müştərilərə verilmiş kreditlər | 9, 29 | 326,656 | 315,304 |
| İnvestisiya qiymətli kağızları | 10 | 11,382 | 10,901 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 11 | 15,986 | 16,608 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 24 | 759 | 805 |
| Digər aktivlər | 12 | 5,749 | 5,643 |
| **CƏMİ AKTİVLƏR** | | **518,192** | **455,433** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklardan və digər maliyyə qurumlarından cəlb olunan depozitlər və qalıqlar | 13, 29 | 68,842 | 61,150 |
| Müştərilərin cari hesabları və depozitləri | 14, 29 | 280,697 | 241,623 |
| Digər borc alınmış vəsaitlər | 15 | 106,160 | 97,700 |
| Subordinasiya borcları | 15, 29 | 11,798 | 11,871 |
| İcarə öhdəliyi | 16 | 885 | 1,059 |
| Digər öhdəliklər | 17 | 1,959 | 1,577 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **470,341** | **414,980** |
| **KAPİTAL:** | | | |
| Səhmdar kapitalı | 18 | 75,005 | 70,004 |
| Səhm mükafatı | 18 | 724 | 724 |
| Binaların yenidən qiymətləndirilməsi üzrə artım | | 1,644 | 1,644 |
| Yığılmış zərər | | (29,522) | (31,919) |
| **CƏMİ KAPİTAL** | | **47,851** | **40,453** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **518,192** | **455,433** |

İdarə heyəti tərəfindən:

**Fazail Musayev**
İdarə Heyətinin sədri
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

9-85-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "TURANBANK" ASC

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 20, 29 | 35,267 | 33,867 |
| Faiz xərci | 20, 29 | (22,854) | (22,971) |
| **Ehtimal olunan kredit zərərindən əvvəl xalis faiz gəliri** | | **12,413** | **10,896** |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | 8, 9, 29 | 2,690 | 657 |
| **Xalis faiz gəliri** | | **15,103** | **11,553** |
| Haqq və komissiya gəliri | 21, 29 | 3,142 | 2,982 |
| Haqq və komissiya xərci | 21, 29 | (1,464) | (1,078) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə xalis gəlir | | 283 | 1,075 |
| Xarici valyuta mübadiləsi əməliyyatları üzrə gəlir/(zərər), xalis | | 690 | (113) |
| İlkin tanınmada maliyyə alətləri üzrə xalis ədalətli dəyər gəliri/(zərəri) | 9, 15 | 158 | (493) |
| Geri alınmış girovların ədalətli dəyərindəki dəyişiklik | | (309) | - |
| Digər gəlir, xalis | | - | 94 |
| **Xalis qeyri-faiz gəliri** | | **2,500** | **2,467** |
| **Əməliyyat gəliri** | | **17,603** | **14,020** |
| İşçi heyəti ilə bağlı xərclər | 22, 29 | (7,596) | (7,034) |
| Ümumi və inzibati xərclər | 23 | (7,316) | (6,457) |
| **Gəlir vergisindən əvvəl mənfəət** | | **2,691** | **529** |
| Mənfəət vergisi xərci | 24 | (294) | (145) |
| **İl üzrə xalis mənfəət** | | **2,397** | **384** |
| **Digər məcmu gəlir:** | | | |
| **İl üzrə cəmi məcmu gəlir** | | **2,397** | **384** |
| Hər səhm üzrə əsas və azaldılmış mənfəət/(zərər) (AZN ilə göstərilmiş) | 19 | 37.0 | 6.2 |

İdarə heyəti tərəfindən:

**Fazail Musayev**
İdarə Heyətinin sədri
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

9-85-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

TuranBank
...Bizimlə etibarlıdır

"TURANBANK" ASC

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
**31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Səhmdar kapitalı | Səhm üzrə mükafat | Binaların yenidən qiymətləndirilməsi üzrə qiymət artımı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il** | **55,003** | **724** | **1,644** | **(32,303)** | **25,068** |
| Adi səhmlərin buraxılması | 15,001 | - | - | - | 15,001 |
| İl üzrə xalis mənfəət | - | - | - | 384 | 384 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **70,004** | **724** | **1,644** | **(31,919)** | **40,453** |
| Adi səhmlərin buraxılması | 5,001 | - | - | - | 5,001 |
| İl üzrə xalis mənfəət | - | - | - | 2,397 | 2,397 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **75,005** | **724** | **1,644** | **(29,522)** | **47,851** |

İdarə heyəti tərəfindən:

**Fazail Musayev**
İdarə Heyətinin sədri
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

9-85-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

TuranBank
...Bizimlə etibarlıdır

## "TURANBANK" ASC

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 33,727 | 35,820 |
| Ödənilmiş faizlər | | (22,507) | (22,610) |
| Alınmış haqq və komissiyalar | | 3,142 | 2,982 |
| Ödənilmiş haqq və komissiyalar | | (1,464) | (1,078) |
| İşçilərlə bağlı ödənilmiş xərclər | | (7,667) | (6,953) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (5,656) | (4,919) |
| Xarici valyutalarla ticarət üzrə əldə olunmuş gəlir | | 283 | 1,075 |
| Ödənilmiş mənfəət vergisi | | (69) | - |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə (yönələn)/daxil olan pul vəsaitləri** | | **(211)** | **4,317** |
| *Xalis (artma)/azalma:* | | | |
| Banklara verilmiş kreditlər və depozitlər | | (283) | 22,679 |
| Müştərilərə verilmiş kreditlər | | (4,516) | (27,563) |
| Digər aktivlər | | 52 | (60) |
| *Xalis artma/(azalma):* | | | |
| Banklardan və digər maliyyə təşkilatlarından alınacaq depozit və qalıqlar | | 7,320 | 14,043 |
| Müştərilərdən alınacaq cari hesab və depozitlər | | 37,686 | (7,762) |
| Digər öhdəliklər | | 373 | 139 |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **40,632** | **1,476** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Satış üzrə daxilolmalar çıxılmaqla, investisiya qiymətli kağızlarının alınması | | (439) | (6,037) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (842) | (2,005) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin silinməsi üzrə daxilolmalar | | 44 | 64 |
| **İnvestisiya fəaliyyətləri üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(1,237)** | **(7,978)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Digər borc alınmış vəsaitlərin əldə olunması | 15 | 43,771 | 64,696 |
| Digər borc alınmış vəsaitlərin ödənilməsi | 15 | (35,439) | (89,948) |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | 16 | (355) | (282) |
| Səhmdar kapitalının buraxılması üzrə daxilolmalar | 18 | 5,001 | 15,001 |
| **Maliyyə fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri** | | **12,978** | **(10,533)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | | **52,162** | **(12,718)** |
| Valyuta məzənnəsindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 2,228 | (155) |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 7 | 63,656 | 76,529 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 7 | **118,046** | **63,656** |

İdarə heyəti tərəfindən:

**Fazail Musayev**
İdarə Heyətinin sədri
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

**Əlizaman İbrahimov**
Maliyyə menecmenti departamentinin direktoru
Bakı, Azərbaycan Respublikası

27 may 2021-ci il

9-85-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.